AZAD ŞƏRİF

# XX ƏSR AZƏRBAYCANININ YARADICI NƏSİLLƏRİ

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin hədiyyəsi

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

BAKI - 2007

# ŞƏRQLƏ QƏRBİN VƏHDƏTİNDƏN DOĞULAN MUSİQİ



**Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycanın xalq artisti, Dövlət mükafatları laureatı Fikrət Cəmil oğlu Əmirov** Qafqazda çox məşhur xanəndə və tarzən Məşədi Cəmil Əmirovun nəslindəndir. Məşədi Cəmillə Üzeyir Hacıbəyov arasında çox isti münasibət var idi. O, hətta bəstəkarın bir sıra musiqili komediyalarında da iştirak etmişdi. Məşədi Cəmil Bülbüllə də dostluq edərdi. 1923-cü ildə Gəncədəki musiqi məktəbini də o açmışdı. Fikrət Əmirov tar sinfi üzrə ilk musiqi təhsilini də məhz bu təhsil ocağında almışdı.

Uzun illər bundan öncə musiqi texnikumunda təhsilini bitirən Fikrət Bakıya üz tutur. O, konservatoriyaya Bülbülün yanına gəlir. Onun musiqi duyumunu və savadını yoxladıqdan sonra Bülbül Fikrəti Üzeyir bəyin yanına aparır. «Bu Məşədi Cəmilin oğludur, çox istedadlı uşaqdır» deyərək onu böyük bəstəkara təqdim edir. Korifeylərimiz çox uzaqgörən idilər və Fikrətdə olan qeyri-adi istedadı dərhal duyaraq, onu hazırlıq şöbəsinə oxumağa göndərmişdilər. Sonradan Fikrət Cəmil oğlu özü də etiraf edərdi ki, ilk gündən iki görkəmli sənətkarın himayəsində olub.

1941-ci ilin noyabrında Fikrət konservatoriyada təhsilini yarımçıq qoyaraq könüllü cəbhəyə yollanır. Voronej ətrafında gedən döyüşlərin birində kontuziya alan Fikrət hərbi hospitalda müalicə olunduqdan sonra Bakıya dönür.

F.Əmirovun xatirələrindən: «Mənim ilk məsləhətçim və dostum Bülbül olub. «Şur» və «Kürd ovşarı» simfonik muğamları üzərində işləməyi də o, mənə tövsiyə etmişdi. Bu əsərlər konservatoriyanı bitirərkən mənim diplom işlərim oldu».

Ancaq hələ buna qədər F.Əmirov yazdığı bir-birindən gözəl məhz iki romansı ilə - «Ulduz» və «Gülüm» romansları ilə çox böyük səs-küy yaratmışdı. Bu iki romansla o, Azərbaycan musiqisində yeni bir janrın əsasını qoydu. Mütəxəssislərin rəyinə görə, bu əsərlərin mürəkkəbliyi Azərbaycan musiqisinin simfonik düşüncə tərzinin metod və prinsipləri ilə ifadə olunmasında idi. Əsərlərin digər mühüm tərəfi isə müəllifin orkestr qurmaq bacarığında ifadə olunmuşdu. Burada maestro Ni-

yazinin məktəbi də təbii ki, öz sözünü demişdi. F.Əmirovun yazdığı «Şur» və «Kürd ovşarı» romansları bütün dünyanın musiqi ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmışdı. Və bəstəkar cəmi 26 yaşında yazdıqlarına görə, SSRİ dövlət mükafatı laureatı adı alır. Tezliklə isə ona ABŞ-ın tanınmış bəstəkarı və dirijoru Leopold Stakovskidən məktub gəlir. Amerikalı bəstəkar məktubunda F.Əmirovun muğamlarının Texas və Hyustonda ifa edilməsindən, musiqiçi və tamaşaçıların bu ifadan böyük zövq almalarından danışırdı. Yəqin ki, elə bu səbəbə görə, F.Əmirovu həmin vaxt ABŞ-a yola düşən D.Şostakoviç, T.Xrennikov, D.Kobelev kimi görkəmli sovet bəstəkarlarının yer aldığı nümayəndə heyətinin tərkibinə salırlar. İlk konsert ABŞ-ın paytaxtında baş tutur və burada L.Stakovskinin rəhbərliyi altında Boston simfonik orkestri «Kürd ovşarı» əsərini ifa edir. Bunun ardınca isə Gennadi Rojdestvenskinin rəhbərliyi altında Londonun ən mötəbər «Royal festival holl» zalında F.Əmirovun simli alətlər üçün yazdığı «Nizami» simfoniyası səsləndirilir. Bu səfərə Fikrət Əmirov özü ilə tar da aparmışdı. Və Kembric universitetinin müəllim və tələbələri ilə keçirilən görüşdə onların təkidli xahişlərindən sonra o, bir neçə Azərbaycan muğamı və xalq mahnısı ifa etmişdi. Məşhur «Bi-Bi-Si» telekompaniyası isə F.Əmirovun tarda ifa etdiyi muğam və xalq mahnılarımızdan bütöv bir veriliş hazırlamışdı.

Fikrət Əmirov bütün ömrü boyu görkəmli fars şairləri Hafiz və Sədinin uyuduğu Şiraz şəhərinə getmək arzusu ilə alışıb yanırdı. Onu da deyim ki, mənə bir neçə dəfə qızılgüllər içində itib-batan bu gözəl şəhərdə olmaq qismət olub. Bildirim ki, Şiraz dünyanın ən poetik şəhəridir və burada gənclərin bir araya gələrək şairlərin xatirə lövhələri önündə yığışıb öz şeirlərini oxuması artıq ənənə halını alıb. Bax beləcə, bu şəhər F.Əmirovda da öz poetikliyi ilə çox böyük təəssürat oyadır və «Gülüstan-Bayatı Şiraz» adlı yeni, artıq üçüncü simfoniya muğamının yaradılması üçün bəstəkara stimul verir. Bu muğam ilk dəfə Moskvada VII Beynəlxalq musiqi Konqresində Gennadi Rojdestvenskinin rəhbərliyi altında dövlət simfonik orkestri tərəfindən ifa olunur.

Bir müddət keçir və F.Əmirov musiqisevərləri yeni əsəri ilə sevindirir. Bəstəkarın yaratdığı «Şur» baletində əbədiyaşar məhəbbət tərənnüm edilirdi. Baletə quruluş verən isə ilk Azərbaycan balerinası, SSRİ-in xalq artisti Qəmər Almaszadə oldu.

F.Əmirovun yaradıcılığının zirvələrindən biri isə, mütəxəssislərin əksəriyyətinin rəyinə görə, «Sevil» operasıdır. Opera böyük Azərbaycan dramaturqu Cəfər Cabbarlının eyni adlı dramı əsasında 1953-cü ildə yazılıb. Mənə 1953-cü ilin 23 dekabrında tamaşanın premyerasında iştirak etmək xoşbəxtliyi nəsib olub. Hələ sağlığında XX əsrin klassiki hesab olunan görkəmli bəstəkar D.Şostakoviç bu operaya belə qiymət vermişdi: «Əmirovun «Sevil» operasını əksər iri şəhərlərin və respublikaların opera teatrlarında səhnələşdirmək lazımdır. «Sevil» gözəl simfoniyanı və möhtəşəm vokalı özündə əks etdirən çox parlaq və istedadlı bir şəkildə yazılmış əsərdir».

Tamaşanın premyerası ərəfəsində F.Əmirovun övladı dünyaya göz açır. Elə bu səbəbə görə bəstəkarın həyat yoldaşı Aida xanım premyerada iştirak edə bilmir. Dünyaya gələn qızına isə Fikrət Sevil adı verir. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti ongünlüyündə «Bolşoy teatr»ın səhnəsində nümayiş olunan «Sevil» operası inanılmaz uğur qazanır. Operanın baş qəhrəmanı Balaşın rolunda isə təkrarolunmaz Rəşid Behbudov çıxış edir. Və nəhayət, bu roldan sonra R.Behbudova çoxdan layiq olduğu SSRİ xalq artisti adı verilir. Rəşid Behbudov Balaş rolunu elə gözəl, elə yüksək səviyyədə ifa etmişdi ki, indi də o anları xatırlayarkən adam nostalji hissi keçirir. Onun bu ifasına həyəcansız qulaq asmaq qeyri-mümkün idi.

Bir dəfə axşamüstü dənizkənarı parkda Şəmsi Bədəlbəyli və Fikrət Əmirovla birgə gəzişərkən dedim: «Fikrət Cəliloviç siz «Sevil»dən sonra heç nə yazmasanız belə, artıq dünyanın musiqi klassiklərinin sırasına daxil olmusunuz». O, məni dinləyib, azca gülümsəyərək dedi: «Yox Azad, hələ arxayınlaşmaq olmaz. Mən hələ bir böyük balet də yazmalıyam. Artıq beynimdə maraqlı librettonun cizgiləri var, hətta musiqini də eşidirəm...»

Və F.Əmirov belə bir baleti ərsəyə gətirdi. Bəstəkarın yaratdığı «Min bir gecə» baleti tənqidçilər tərəfindən dərhal öz yüksək qiymətini aldı. Kreml sarayının zalında çox böyük uğurla keçən premyeradan sonra ittifaq miqyaslı mətbuatda da «Min bir gecə» baletinə həddən ziyadə yüksək qiymət verildi. Balet Mərakeş, Bolqarıstan, Gürcüstan, Oman, eləcə də Voronej, Dnepropetrovsk, Novosibirsk və Donetsk şəhərlərinin opera teatrlarının səhnələrində nümayiş etdirildi. Əsərin bəstəçisi F.Əmirovu isə çox ədalətli bir qərar çıxarıb ikinci dəfə SSRİ dövlət mükafatına layiq gördülər.

Uzaq 1963-cü ildə Qahirədə ezamiyyətdə olarkən azərbaycanlı pianoçu və bəstəkar Elmira Nəzirovanın konsertində bir tamaşaçı kimi iştirak etmək qismət olmuşdu. Bu konsertə təsadüfən düşmüşdüm, ancaq həmin anları indi də çox gözəl xatırlayıram. E.Nəzirovanın F.Əmirovla əməkdaşlığı nəticəsində ərsəyə gələn, ərəb mövzuları üzərində qurulmuş, fortepiano və simfonik orkestr üçün konserti çox böyük müvəffəqiyyət qazandı. Onu da qeyd edim ki, konsert Süveyş kanalının açılması şərəfinə ucaldılmış Qahirənin möhtəşəm opera teatrında keçirilmişdi. Bir haşiyə çıxaraq oxuculara onu da deyim ki, C.Verdinin «Aida» operası ilk dəfə İtaliya truppası tərəfindən 1869-cu ildə məhz bu teatrın səhnəsində ifa edilib.

Fikrət Əmirov «Ürəkləri oğurlayanlar», «Gözün aydın» musiqili komediyalarının, habelə «Nəsimi haqqında hekayət», «Nizami» kimi baletlərin müəllifidir. O, Üzeyir Hacıbəyovun qoyduğu ənənəni davam etdirərək xalq musiqimizin janr keyfiyyətlərinin inkişafı üzərində işləyir, simfonik musiqinin prinsipləri əsasında xalis muğam materiallarını inkişaf etdirirdi. O, çox ahəngdar bir şəkildə peşəkar musiqi sənətinin iki qolunu - şərq və qərb musiqisini birləşdirməyə nail olmuşdu. F.Əmirov həmişə deyərdi ki, biz hamımız Üzeyir məktəbindən çıxmışıq».

Ümumiyyətlə, bizim bütün bəstəkarlarımız yaradıcılıqları boyu nəhəng, əzəmətli əsərlər yaratmaqla bərabər, gözəl romanslar da yazırdılar. Üzeyir bəyin «Sənsiz», Qara Qarayevin «Mən sizi sevirdim», Tofiq Quliyevin «Üzüyümün qaşı firuzədəndir» romanslarını xatırlayın. F.Əmirov isə bizə «Mən səni araram» romansını bəxş etdi. Əslində, aramaq və gözəllik yaratmaq onun bütün həyatının və yaradıcılığının leytmotivi idi.

**Cəmil Əmirov** atası Fikrət Əmirovdan peşəkar bəstəkarlığı və tarda ifa qabiliyyətini mənimsəyib. O, konservatoriyada Cövdət Hacıyevin bəstəkarlıq sinfində oxumuşdu. F.Əmirov artıq prelyudiya, trio, kvartetlər yazmağa başlayan oğlunun uğurlarına həddən ziyadə sevinərdi. İllər ötdükcə isə Cəmil daha çox caz musiqisinə meyl göstərməyə başlamışdı. Onun yaratdığı «Qobustan» estrada ansamblı artıq müəyyən müvəffəqiyyətlər əldə etməyə başlamışdı. Tixon Xrennikovun yazdıqlarından: «Bəstəkar Cəmil Əmirov - Azərbaycan musiqisinin klassiki Fikrət Əmirovun oğlu. Dahi atasının ruhu oğlunun musiqisinin üzərinə hopub».

Cəmil orkestr, royal və klavessin simli kvartet üçün simfoniyaların, kamera orkestri üçün «F.Əmirovun 2 miniatürü» mövzusunda fleyta, violonçel və fortepiano triosunun müəllifidir.

Ancaq istedadın atasından Cəmilə irsən keçməsinə baxmayaraq, o, F.Əmirovun təcrübəsini təkrarlamamış, öz yaradıcılığında müasir, yeni axtarışlara yol açaraq, bu yolu daha da inkişaf etdirmişdi.

Rauf Fərəcov «C.Əmirov, «Xatirə albomu» kitabında yazır ki, o, öz kompozisiyalarında milli folklorun melodiya və ritmini və Amerika cazı ətrafında düşündüklərini üzvi bir şəkildə birləşdirməyə nail olub.

Cəmil Əmirov yaratdığı «Qobustan» ansamblının tərkibində Mərakeş, Seneqal, Hindistan və digər xarici ölkələrə çoxsaylı qastrol səfərlərində olub. Bu ölkələrdə verilən konsertlər həddən ziyadə böyük müvəffəqiyyət qazanıb.

Müslüm Maqomayevin dediklərindən:

«Cəmilin musiqi istedadı Allahdan gəlmədir. Yəqin elə buna görə də onun musiqisində kosmosdan axıb gələn səslər həmişə qulağımda səslənir. Hətta sırf milli kolorit üzərində qurulmuş improvizə belə təkidli siqnallar kimi haradansa uzaqlardan, sanki başqa dünyalardan uçub gəlir».